## Azərbaycan: otuzillik humanitar fəaliyyətin təsiri

90-cı illərin əvvəlində münaqişə alovlanaraq bütün Azərbaycanda minlərlə insanın həyatına son qoydu, çoxlu sayda insanın köçkün düşməsinə səbəb oldu. Çoxları münaqişə ərazisini tərk etməli olsa da, saysız-hesabsız insan müharibədən ağır ziyan görmüş şəhər və kəndlərdə qalaraq qeyri-müəyyənlik və ehtiyac içində yaşamalı oldu. Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) hakimiyyət orqanları və Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) ilə sıx əməkdaşlıq edərək münaqişədən ən çox zərər çəkmiş insanlara zəruri humanitar yardım göstərdi. BQXK-nın Azərbaycandakı nümayəndəliyi otuzillik fəaliyyətdən sonra bağlanır və biz geriyə boylanaraq münaqişədən zərər çəkmiş icmaların dəyişən ehtiyaclarına necə uyğunlaşdığımıza, bu icmaların yenidən ayağa qalxması üçün göstərdiyimiz dəstəyə və tərəfdaşlarımızın potensialının artırılmasında oynadığımız rola nəzər salmaq istərdik.

---

### *İtkin düşmüş, həlak olmuş şəxslərin və onların ailələrinin ehtiyaclarının qarşılanması*



**Bakı, 2022**

BQXK 90-cı illərdən başlayaraq itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsində hakimiyyət orqanları və icmalarla birgə çalışmışdır. Hazırkı tarixə, biz Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına təxminən 4 000 itkin düşmüş şəxsin qeydə alındığı səkkiz rəsmi siyahı təqdim etmişik.

Bu müddətdə BQXK aidiyyəti qurumların 300-dən çox mütəxəssisinə məhkəmə ekspertizası üzrə təlim keçib. Bu təşəbbüslər, münaqişənin üstündən otuz ildən çox keçməsinə baxmayaraq, hələ də cavab gözləyən ailələrə və icmalara göstərdiyimiz dəstəyin davamlılığını əks etdirir.

*Həbs yerlərinə ziyarət*



**Bakı, 2017**

Ötən illər ərzində, iş metodlarımızı dəyişməkdə olan kontekstə uyğunlaşdırarkən belə, saxlanılan şəxsləri himayə etmək öhdəliyimizə sadiq qalmışıq. 2017-ci ildə çəkilmiş fotoşəkildə BQXK nümayəndələri həbs yerinə baş çəkərək saxlanılan şəxslə söhbət edir, onunla rəftarı və saxlanıldığı şəraiti qiymətləndirirlər. Müşahidələr və tövsiyələr konfidensial qaydada penitensiar xidmət orqanlarına təqdim olunaraq, əməkdaşlığa və tədricən təkmilləşmələrə şərait yaradırdı. 1992-ci ildən başlayaraq həyata keçirilən bu ziyarətlər saxlanılan yüzlərlə şəxsin ailələri ilə əlaqələrinin bərpa olunmasına və mənəvi bağlarının qorunmasına kömək etmişdir.

BQXK-nın həbs yerlərindəki fəaliyyətini təyin edən məqam 1995-ci ildə Ədliyyə Nazirliyinin tərəfdaşlığı ilə penitensiar sistemdə başladılan ilk vərəmə nəzarət proqramı oldu. 2011-ci ilə məhbuslar arasında il ərzində ölüm sayı bir neçə yüzdən 20-dək endi. Bu, həbsxana şəraitində vərəmlə mübarizə istiqamətində irəliyə doğru atılmış əhəmiyyətli addım idi.

## Beynəlxalq humanitar hüququn inteqrasiyasının təbliği



**Bakı, 2021**

Ötən otuz il ərzində BQXK beynəlxalq humanitar hüququn (BHH) təbliği və inteqrasiyası sahəsində Azərbaycanın hakimiyyət orqanları ilə sıx əməkdaşlıq etmişdir. Müdafiə Nazirliyi və Daxili İşlər

Nazirliyi ilə əməkdaşlıq çərçivəsində on minlərlə əməkdaş BHH və ictimai təhlükəsizliyin beynəlxalq standartları mövzusunda təlim keçmişdir. Bu, həmin prinsiplərin hərbi və hüquq-mühafizə praktikasına yeridilməsinə kömək etmişdir.

2021-ci ildə Bakıda, ADA universitetində çəkilmiş bu fotoşəkildə BQXK-nın təşkil etdiyi beynəlxalq humanitar hüquq üzrə Milli Məhkəmə Simulyasiyasının iştirakçıları əks olunub. BHH-yə həsr olunmuş proqramlarda, o cümlədən qonaq mühazirələrində, məhkəmə simulyasiyalarında və tanışlıq səfərlərində 5000-dən çox tələbə, universitet müəllimi və hüquq mütəxəssisi iştirak etmişdir.

***Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə tərəfdaşlıq***



**Ağdam rayonu, 2008**



**Naftalan, 2021**

Ötən illər ərzində bizim Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) ilə tərəfdaşlığımız Azərbaycandakı humanitar səylərimizin təməl daşı olaraq qalmışdır. 2008-ci ildə Ağdamın Zəngişalı kəndində çəkilmiş bu fotoşəkildə uşaqlar yenicə tikilmiş Təhlükəsiz Oyun Ərazisində oynayırlar. 2021-ci ildə Naftalanda AzQAC könüllüləri ilk yardım bacarıqlarının artırılması üçün təlimdə iştirak edirlər.

Bu əməkdaşlıq 1992-ci ildən başlayaraq yardımın çatdırılması, məcburi köçkünlərə dəstək göstərilməsi və ilk yardım və tibbi xidmətin əlçatanlığının təmin edilməsi üçün həyati əhəmiyyət kəsb etmişdir. 2000-ci illərdən etibarən tərəfdaşlığa mina risklərinə dair maarifləndirmə, təhsil, su və gigiyena təminatı, münaqişədən zərər çəkmiş şəxslərə psixososial dəstək və imkansız ailələrə maddi yardım da daxil olmuşdur. Bu təşəbbüslərlə yanaşı, BQXK, həmçinin AzQAC-ın potensialının artırılmasına töhfə vermiş, zəruri humanitar xidmətlərin davamlılığını təmin etmək məqsədilə, onun kadr, könüllü ehtiyatının və rayon bölmələrinin inkişafına dəstək olmuşdur.

***Silahların yaratdığı təhlükələrlə mübarizə***





**Bərdə, 1997** **Tərtər, 2024**

Münaqişəyə görə Azərbaycan mina və müharibənin partlayıcı qalıqları ilə ən çox çirklənmiş ölkələrdən biri olaraq qalır. 1997-ci ildə Bərdədə məktəblilərə piyada əleyhinə minaların yaratdığı təhlükələrin göstərildiyi və 2024-cü ildə Tərtərdə BQXK əməkdaşlarının sakinləri müharibənin partlayıcı qalıqlarının yaratdığı risklər haqqında məlumatlandırdığı bu fotoşəkillər icmaları bu təhlükələrdən qorumağa kömək etmək öhdəliyimizə uzun illər sadiq qaldığımızın sübutudur.

2020-ci ildə baş vermiş döyüş əməliyyatlarından sonra biz risklərə dair maarifləndirmə və təhlükəsiz davranış mövzusunda mümkün qədər çox insanı məlumatlandırmaq üçün işimizi gücləndirərək çirklənmiş ərazilərdə insanların zərər görməməsinə kömək etdik. 2022 və 2025-ci illər arasında, biz, AzQAC-la birlikdə, münaqişədən zərər çəkmiş icmalarda 100 000-dən çox insana partlayış təhlükələrini tanımaq və özünü qorumaq haqqında həyat xilasedən məlumatlar verdik.

***Səhiyyə xidmətlərinə çıxışın yaxşılaşdırılması***





**Bərdə, 1994** **Bakı, 2024**

1990-cı illərdən başlayaraq BQXK-nın tibbi heyəti münaqişənin təsirlərinə məruz qalmaqda olan ərazilərdə xəstə və yaralılara zəruri tibbi yardım göstərmişdir. Birinci fotoda 1994-cü ildə BQXK-nın tibb bacısı göstərilən tibbi yardımla ətraflı tanış olur. BQXK müharibədə yaralananları qəbul edən xəstəxanalara zəruri tibbi ləvazimatlar və cərrahi materiallar paylamaqla bu təşəbbüslərə dəstək göstərirdi. Biz, milli qurumlarla sıx əməkdaşlıq edərək, təsiri uzunmüddət davam edən təşəbbüslər həyata keçirmiş, BQXK-nın birbaşa iştirakı olmadan belə səhiyyə xidmətlərinə çıxışın davamlılığının təmin edilməsinə kömək etmişik.

BQXK, münaqişənin görünməz yaralar buraxdığını nəzərə alaraq, 2000-ci illərin əvvəlində Psixi Sağlamlıq və Psixososial Dəstək proqramına start verdi. İlk əvvəl, itkin düşmüş şəxslərin ailələrinə bitməyən namüəyyənlik və kədərin öhdəsindən gəlmək üçün psixososial qiymətləndirmələr, dəstək şəbəkələri və məsləhət xidmətləri vasitəsilə dəstək göstərildi. Ehtiyaclar artdıqca, proqram genişləndirilərək münaqişədən zərər çəkmiş icmalara, mina qurbanlarına, repatriasiya olunmuş və digər şəxslərə şamil olunmağa başladı.

## *Münaqişədən zərər çəkmiş icmalarda təhsil imkanlarının artırılması*



**Hacıməmmədli kəndi, Ağdam, 2018**



**Təzəkənd kəndi, Ağdam, 2022**

BQXK-nın Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə tərəfdaşlıq çərçivəsində həyata keçirdiyi Təhsil Proqramı təhlükəsiz təhsil mühitinin təbliğ edilməsi, infrastrukturun yaxşılaşdırılması və ən imkansız uşaqlara və ailələrə dəstək göstərilməsində vacib rol oynadı. 2018 və 2022-ci illərdə çəkilmiş bu şəkillərdə BQXK-nın təmir etdiyi təhsil obyektləri əks olunub. Bu işin bünövrəsi əsasında 2021 və 2023-cü illər arasında BQXK 25 məktəb və 6 uşaq bağçası təmir etmiş, uşaqların oxuması və böyüməsi üçün təhlükəsiz məkanları bərpa etmişdir.

### *Təcili ehtiyacların qarşılanması və dolanışığın yaxşılaşdırılması*




**Gədəbəy, 1997**



**Ağstafa, 2018**

1990-cı illərdən başlayaraq BQXK Azərbaycanda münaqişədən zərər çəkmiş icmaların maddi dayanıqlılığının artırılmasında vacib rol oynamışdır. 1997-ci ildə çəkilmiş bu fotoşəkildə münaqişədən zərər çəkmiş 1240 ailəyə fövqəladə vəziyyətlə əlaqədar ərzaq yardımı edilir. BQXK

fövqəladə yardımdan inkişafayönəlik proqramlara keçid etməklə uzunmüddətli bərpa və daha çox maddi müstəqilliyə şərait yaratdı.

2018-ci ildə BQXK-nın əməkdaşları, AzQAC-ın dəstəyi ilə, Ağstafa rayonunun sakinlərinə gübrə paylayaraq, münaqişədən zərər çəkmiş icmaların xüsusi ehtiyaclarını qarşılamışdır. Bu cür təşəbbüslər həyata keçirməklə BQXK-nın İqtisadi təhlükəsizlik Proqramı münaqişədən zərər çəkmiş ərazilərdə yaşayan on minlərlə insana dolanışıqlarını layiqli şəkildə bərpa etməyə kömək etmişdir.



**Sədərək, Naxçıvan, 1992**

Bizim əməliyyatlarımız dəyişən ehtiyaclara uyğun inkişaf edirdi. 1992-ci ilin avqust ayında çəkilmiş fotoşəkildə BQXK-nın əməkdaşı, münaqişəyə ilkin cavab reaksiyamızın tərkib hissəsi olaraq, Sədərəkdən olan məcburi köçkünlərin ehtiyacları ilə tanış olur. Buna baxmayaraq, bizim göstərdiyimiz təsirin böyük hissəsi daha səssiz, uzunmüddətli təşəbbüslərin, əsas məqsədi təcili humanitar ehtiyaclardan sonrakı illərdə ləyaqətin geri qaytarılması, dayanıqlılığın yaradılması və bərpaya dəstəyin göstərilməsi olan işlərin nəticəsidir.

***